# Hərbi-vətənpərvərlik mövzusunda rəsm sərgisi



Səbail rayonunun mərkəzindəki Sahil bağında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93 illiyinə həsr olunmuş silsilə tədbirlər çərçivəsində rayon icra hakimiyyətinin təşkilatçılığı ilə məktəblilər arasında hərbi-vətənpərvərlik mövzusunda rəsm müsabiqəsi keçirilmişdir.

Bayramsayağı bəzədilmiş Sahil bagında böyük abadlıq işləri aparılmış, park başdan-başa yenilənmiş, istedadlı gənclər tərəfindən özlərinin bacarıq və istəklərinə uyğun gül və gül-kol bitkiləri əkilmiş, gənclərin sərbəst qaydada öz fantaziyalarına uyğun müxtəlif kompozisiyalar hazırlanmışdır. Parkdakı gül kompozisiyaları insanları dönə-dönə ayaq saxlamağa, dahi şəxsiyyətə xalq məhəbbətinə güllərin, çiçəklərin dili ilə baxmağa vadar edirdi.

Rayonun orta məktəblərində, həmçinin Bakı Oksford məktəbində oxuyan və 20 saylı Uşaq Yaradıcılıq Mərkəzində məşğul olan 100-dən çox məktəbli onlara ayrılmış vaxt ərzində hərbi-vətənpərvərlik mövzusunda - müharibə, xüsusilə də Qarabağ savaşı ilə bağlı müxtəlif rəsmlər çəkmişlər. Gənc rəssamlar, eləcə də müəllimlər məktəblilərə rəsmlərin çəkilişində müvafiq məsləhətlər vermişlər.

Eyni zamanda parkda gənc rəssamların həmin mövzuda çəkdikləri rəsmlərdən ibarət sərgi nümayiş etdirilmişdir. Sərgi tədbirin qonaqları və parka toplaşan paytaxt sakinləri tərəfindən böyük maraqla qarşılanmışdır. Gənc rəssamlar öz əsərlərinin nümayişi vaxtı tamaşaçılara əsərləri ilə bağlı izahlar vermişlər.

Azərbaycan Rəssamlar İttifaqının, Uşaq Yaradıcılıq Mərkəzinin iştirakı ilə yaradılmış münsiflər heyəti məktəblilərin rəsmlərinə baxaraq qalibləri müəyyən etmişlər. Qaliblər Səbail RİH-in fəxri fərmanları və hədiyyələri ilə, digər iştirakçılar və sərgidə əsərləri nümayiş etdirilən gənc rəssamlar Səbail RİH və Rəssamlar İttifaqının diplomları ilə mükafatlandırılmışlar.

Səbail RİH-in başçısı Eldar Əzizov, YAP Səbail rayon təşkilatının sədri Şəmsəddin Hacıyev, rayonun idarə, təşkilatlarının rəhbərləri, pedaqoji kollektivlərin və ictimaiyyətin nümayəndələri parkı gəzmiş, sərgi və məktəblilərin çəkdikləri rəsmlər və burada yaradılan gül kompozisiyaları ilə tanış olmuş, məktəblilərlə, gənc rəssamlarla səmimi söhbətlər etmişlər. Sərgi və rəsm müsabiqəsi tədbirdə iştirak edən şəhər sakinlərinin və rayon ictimaiyyəti nümayəndələrinin diqqətini cəlb etmişdir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***